# Azərbaycan Respublikası - Qırğız Respublikası münasibətləri

**Qısa tarixi məlumat:**

İki ölkə arasında diplomatik münasibətlər 19 yanvar 1993-cü ildə yaradılmışdır. Azərbaycan Respublikasının Qırğız Respublikasındakı Səfirliyi 2007-ci ilin sentyabr ayında fəaliyyətə başlamışdır. 09 avqust 2012-ci il tarixində Qırğızıstanın Rusiya Federasiyasındakı Səfirliyinin müşaviri Aycigit Buranov Qırğız Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili təyin edilmişdir. Hazırda, Azərbaycan Respublikasının Qırğız Respublikasındakı Səfiri Hidayət Orucovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**

**Dövlət başçıları:**

**1995-ci il 22-24 avqust** - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qırğızıstana işgüzar səfər etmişdir (Türkdilli dövlətlərin 3-cü Sammiti və Manasın 1000 illiyi).

**1997-ci il 23 aprel** - Qırğız Respublikasının Prezidenti Əskər Akayev Azərbaycana rəsmi səfər etmişdir.

**1998-ci il 7-8 sentyabr** - Qırğız Respublikasının Prezidenti Əskər Akayev Azərbaycana işgüzar səfər etmişdir (Tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfrans).

**2000-ci il 8-9 aprel** - Qırğız Respublikasının Prezidenti Əskər Akayev Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli ölkələrin dövlət başçılarının 6-cı Zirvə görüşü və“Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi).

**2009-cu il 2 oktyabr** - Qırğız Respublikasının Prezidenti Kurmanbek Bakiyev Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Ölkələrin Dövlət Başçılarının 9-cu zirvə görüşü).

**2012-ci il 30-31 mart** - Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycana rəsmi səfər etmişdir.

**2013-cü il 14-16 avqust** – Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Sammiti).

**Hökumət başçıları:**

**2008-ci il 10 oktyabr** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qırğızıstana işgüzar səfər etmişdir (MDB Dövlət başçıları Şurasının iclası).

**2011-ci il 1 dekabr** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qırğızıstana işgüzar səfər etmişdir (Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin andiçmə mərasimi).

**2012-ci il 23 avqust** - Baş nazir Artur Rasi-zadə Qırğızıstana işgüzar səfər etmişdir (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2-ci Zirvə toplantısı).

**Xarici İşlər Nazirləri:**

**2012-ci il 15-16 oktyabr** – Qırğız Respublikasının xarici işlər naziri Erlan Abdıldayev Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısı).

**2013-cü il 14-16 avqust** – Qırğız Respublikasının xarici işlər naziri Erlan Abdıldayev Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Sammiti).

**Parlamentlərarası əlaqələr:**

**2011-ci il 3-5 iyul -** Qırğız Respublikası Joqorku Keneşinin (Parlament) Sədri Axmatbek Keldibekov Azərbaycana rəsmi səfər etmişdir.

**2014-cü il 11-14 iyun -** Qırğız Respublikası Joqorku Keneşinin (Parlament) Sədri Asılbek Jeenbekov Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) 5-ci plenar iclası).

Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Rafiq Məmmədhəsənovdur.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında 35-dən artıq sənəd imzalanmışdır.

**Link:** http://www.azembassy.kg/

*Son yenilənmə tarixi: 18.09.2014*